2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Müasir Müsavat Partiyasının səlahiyyətli nümayəndəsinin qeydiyyatının ləğv edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə Müasir Müsavat Partiyası 2020-ci il yanvarın 31-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək Komissiyanın 21 dekabr 2019-cu il tarixli 20/95 saylı qərarı ilə partiyanın səlahiyyətli nümayəndəsi kimi qeydə alınmış Nağıyeva Nərgiz Əli qızının qeydiyyatının ləğv olununmasını xahiş etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müraciətə baxaraq müəyyən etmişdir ki, Müasir Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi N.Ə.Nağıyevanın qeydiyyatı ləğv olunmalı və "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında Təlimat"ın 3.3-cü bəndinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən ona verimiş lövhəcik etibarsız hesab edilməlidir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22-ci, 28.2-ci, 28.4-cü və 52.5-ci maddələrinə və qeyd edilən Təlimatın 3.3-cü bəndinə əsasən **q ə r a r a a l ı r :**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə Müasir Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Nağıyeva Nərgiz Əli qızının qeydiyyatı ləğv olunsun və Mərkəzi Seçki Komissiyası tərəfindən ona verimiş lövhəcik etibarsız hesab edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov